Eurasian Academy of Sciences Social Science Journal (Internatiol Refereed & Indexed)
Eurasian Academy of Sciences Social Sciences Journal
2017 Volume:14 S: 49 - 63
Published Online May 2017 (http://socialsciences.eurasianacademy.org)
http://doi.org/10.17740/eas.soc.2017.V14-05

# The Turkistan General Governorship

**Camila Hasanova***

* Azərbaycan Dövlət İqtisad Universiteti i.e.n., b/m.

E-mail: hasanovacemile@mail.ru

Copyright © 2017 Camila Hasanova. This is an open access article distributed under the Eurasian Academy of Sciences License, which permits unrestricted use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

**ABSTRACT**

Wide territories of the Central Asia have been included to composition of the Russia Empire in 1867. In spite of Kryzhanovskys objection, committee Orenburg of leading to government bodies, he has decided taking back property being in the middle Asia. The first general governor – general adjutant has been appointed K.P.Kaufman.

Businessmen of the Russia Empire were continuing to show more great interest in expand of the Asian trade and operation of the Turkistan natural stocks reserves.

**Keywords**: Turkistan, Asia, Russia, trade, natural stocks

## Türküstan General-Qubernatorluğunun Yaradılması

**ÖZET**

1867-ci ildə Mərkəzi Asiyanın geniş əraziləri Rusiya imperiyasının tərkibinə daxil olmuşdur. Krijanovskinin etirazlarına baxmayaraq, hökumət qərara aldı ki, Mərkəzi Asiya Orenburq komitəsindən çıxarılsın və yerində Türküstan generl-qubernatorluğu yaradılsın. Birinci general-qubernator general adyutant K.P.Kaufman təyin edildi.

Rusiya imperiyasının sahibkarları Mərkəzi Asiyada ticarət əlaqələrini genişləndirməyə böyük maraq göstərirdilər və Türküstanın təbii sərvətlərini mənimsəməyə çalışırdılar.

**Anahtar Kelimeler:** Türküstan, Asiya, Rusiya, ticarət, təbii sərvətlər

## GİRİŞ

1853-1856-cı illərin Krım müharibəsində məğlub olan Rusiya "Avropa jandarmı" kimi şöhrət qazanmış rolunu və nüfuzunu itirdi. Bundan sonra o, Şərqdə, o cümlədən Mərkəzi Asiyada fəal xarici siyasət-işğalçılıq mövqeyinə üstünlük verməyə, burada özünün iqtisadi, siyasi-hərbi mövqeyinin möhkəmləndirməyə çalışırdı.

Rus hakim dairələri, ilk növbədə iş adamları, kapitalistləri, siyasətçilər üçün Mərkəzi Asiyanın Buxara, Kokand, Xivə kimi geri qalmış xanlıqlardan həm əlverişli və ucuz xammal mənbəyi kimi istifadə etmək, həm də Rusiyada istehsal olunmuş, Avropa ilə müqayisədə satış üçün əlverişli olmayan mallarını buraya ixrac etməklə külli miqdarda qazanc əldə etmək imkanı yaranmışdı. Lakin bu yolda çarizm öz güclü və qorxulu rəqibi Britaniya imperiyası ilə toqquşurdu. Belə ki, XIX əsrin ortalarında İngiltərə Hindistanı özünə tabe etmək prosesini başa çatdırmış, Şərqi Asiya və Afrikanın bir sıra dövlətlərini işğal etmək məqsədilə onlardan iqtisadi, hərbi-siyasi vasitə kimi istifadə etməyə çalışırdı. Böyük Britaniya kəşfiyyatı Buxara, Kokand, Xivə, Türkmənistan və Pamirdə fəal pozuculuq işləri ilə məşğul idi. İngilis hakim dairələri və mətbuatı özünün xarici siyasətini ört-basdır etmək üçün "Hindistanda rus təhlükəsi" ası altında demaqoq səs-küy qaldırmışdı.

XIX əsrin 60-cı illərinin sonunda Rusiya imperiyasının və diplomatiyasının qarşısında Mərkəzi Asiyanın indiki Özbəkistan ərazisində, Sır-Dərya və Amu-Dərya boyunda Orenburq və Sibir general-qubernatorluqlarından sonra güclü hərbi-siyasi idarəçilik rejimi funksiyasını həyata keçirən yeni bir qubernatorluq-Türküstan general qubernatorluğunu yaratmaq vəzifəsi qarşıda dururdu.

### General-qubernatorluğun yaranması

1867-ci ildə mərkəzi Daşkənd şəhəri olmaqla işğal olunmuş torpaqlar əsasında Türküstan general-qubernatorluğu yaradıldı. Onun tərkibinə 1847-ci ildə qazaxlardan, Kokand xanlığı və Buxara əmirliyindən zəbt olunmuş torpaqlar da daxil edildi. Eyni zamanda Türküstan Hərbi dairəsi yaradıldı.

Təşkil edilmiş yeni Türküstan general-qubernatoru vəzifəsinə general K.P.Kaufman təyin olunmuşdur. (Халфин, 1960: 226). 1868-ci ildə Kokand xanı Xudayar xana iki ölkə (Rusiya-Kokand) müqavilə imzalamağı təklif etdi. Beş maddədən ibarət olan müqavilənin şərtlərinə görə: rus tacirlərinə xanlığın böyük ərazisində sərbəst hərəkət və ticarət etmək onlara öz karvansaraylarından istifadə etmək, rus tacirlərindən alınacaq rüsumun faizini azaltmaq, buradan qonşu Kokand sərhədinə sərbəst keçmək hüququ və s. tələb olunurdu. Müqaviləni imzalayan Kokand xanı Rusiyanın vassalına çevrildi. Kokandı təhlükəli düşmən kimi məğlub edən Kaufman Buxara xanlığı üzərinə hücum etdi.

1864-cü ilin ilk aylarında çar hökuməti Suzak və Alatay üzərinə ciddi və hərtərəfli hücuma hazırlaşırdı. Eyni vaxtda Kokanda qarşı da əməliyyatlara hazırlıq görülürdü. Yeni Kokand hökmdarı Molla Alimkul xanlığının hərbi və maliyyə vəziyyətini möhkəmləndirmək üçün mühüm tədbirlər görürdü. Onun göstərişi ilə Daşkənd valisi Nur Məhəmməd Suzak, Çolaq-Kurqan və Aul-Ataya gedərək həm də bu şəhərlərin hərbi vəziyyəti ilə tanış olur, həmçinin də xanlıq ərazisindəki köçəri qazax qəbilələrindən vergi toplamağa çalışırdı. Onu əvəz edən oğlu isə Aul-Ataya gəlib Çu çayı arxasında yaşayan qazax tayfalarını rus hökumətinə qarşı qaldırmağa başlamışdı. (Кастрельская, 1980: 88-89).

Eyni zamanda Türküstan şəhərinin hakimi Mirzə Dövlət bu işdə xüsusi fərqlənirdi. O, 2 min nəfərlik dəstə yaradaraq 10 topla ruslara qarşı mübarizəyə hazırlaşırdı. Orenburq və Qərbi Sibir general-qubernatorlarının Türküstanı tutmaq planı müəyyən tərəddüdlərə baxmayaraq Peterburq tərəfindən müdafiə olunurdu. 1864-cü ilin mayında Kokand üzərinə hücum planı tamamlandı. Sır-

Dərya hərbi xəttinin komandanı polkovnik Veryevkin 1500 nəfərlik dəstə ilə Türküstan üzərinə hücuma keçmişdi. Qərbi Sibirdən isə Aul-Ata üzərinə Çu çayı arxasında dayanan polkovnik Çernyayevin 2500 nəfərlik rus qoşunları hərəkət edirdi. Onu ştabrotmist Çokan Vəlixanov müşaiyət edirdi. Döyüşsüz Mərkl şəhərini tutan Çernyayev iyunun 4-də 2 saatlıq döyüşdən sonra Aulie-Atanı tutmuşdu. İyunun 9-da Veryovkinin dəstələri isə Türküstana yaxınlaşmışdı. İyunun 12-də şəhər alınmışdı. Türküstan diyarının başçısı Dövlət Mirzə 300 sərbazla Daşkəndə geri çəkilmişdi. (Халфин, 1974: 308).

Mərkəzi Asiyada hərbi əməliyyatların gedişi Peterburqun xüsusi marağına səbəb olurdu. Müvəffəqiyyətli hərbi əməliyyatlara görə Çernyayev və Veryovkinə general-mayor rütbəsi verilmişdi. Əməliyyatlarda iştirak edən zabit və əsgərlər orden və medallarla təltif edilmişdilər.

Çu çayından Yanı-Kurqan istiqamətində yaradılan yeni Türküstan general-qubernatorluğu ölkəsinə əvvəl komandan sonra isə ilk general-qubernator təyin edilən general Çernyayevə hərbi əməliyyatlara Sır-Dərya boyundan başlayıb, Mərkəzi Asiyanın içərilərinə doğru hərəkət etmək tapşırığı almışdı. 1864-cü ilin iyulun 7-də o, Aulie-Atağan Çimkənd şəhəri üzərinə hərəkət etmiş, burada Kokand xanının ordusu cəmləşmişdi. Döyüşə nəzarət etmək üçün Kokand xanı Alimkul Çimkəndə gəlmişdi. Alimkulla Çernyayevin nümayəndəsi arasında aparılan danışıqlarda Kokand xanı rus qoşunlarını geri çəkmək və hücumu dayandırmağı tələb etmişdi. Lakin Peterburqun təkidi ilə Çimkəndi tutmaq göstərişinə baxmayaraq, Çernyayevin şəhəri tutmaq cəhdi uğursuzluqla nəticələnmişdi. 1864-cü ilin iyulun sonuna rus qoşunları şəhərin mühasirəsindən əl çəkib, onu yenidən tutmaq üçün hazırlaşmağa başlamışdılar. Ciddi hazırlıqdan sonra polkovnik Lerxinin orduları sentyabrın 3-də şəhər üzərinə hücum etdi və sentyabrın 21-də Çimkənd hücumla alındı. (Mehtiyeva, 2004: 68).

1864-cü ilin sentyabrın 27-də Çernyayev Peterburqun razılığını gözləmədən 1550 əsgər və 12 topla Daşkənd üzərinə hərəkət etməyə başladı. Lakin şəhər Kokand qoşunları tərəfindən möhkəm müdafiə olunurdu. Kokand artilleriyası dəfələrlə rusların artilleriyasından güclü idi. Xeyli qüvvə itirdikdən sonra ruslar şəhərdən geri çəkilməyə məcbur oldular. Bu məğlubiyyət çar məmurları arasında müxtəlif ixtilaflara və təşvişə səbəb oldu. Çar II Aleksandr Çernyayevin raportu ilə tanışlıqdan sonra onun bu hücumu düşünülməmiş hərəkət kimi qiymətləndirilirdi. Lakin çar hökuməti Mərkəzi Asiyanın işğalı siyasətindən əl çəkmək fikrində deyildi. Ona bu addım ərazidə köçürmə siyasətinin həyata keçirilməsi üçün çox lazım idi. Rus çarizmi və burjuaziyası işğal olunacaq ərazilərdə iqtisadiyyatı yenidənqurmalı və genişləndirməli idi. Yeni ərazilər rus sənayesi üçün lazım idi. Odur ki, 1864-cü ilin oktyabrın 31-də xarici işlər nazirliyinin hərbi nazirliklə birgə hazırladıqları "Rusiya imperiyasının Mərkəzi Asiyada siyasəti" adlı sənədlər çara təqdim edilib təsdiq olunmuşdu. Mütləqiyyətin Mərkəzi Asiyada xarici siyasət proqramı olan bu sənəddə bütün Türküstan vilayətinin tədricən və mərhələlər üzrə tutulması nəzərdən keçirilirdi. Əsas təhlükə Kokand xanlığı idi. Ona görə də onun işğalı əsas məsələ idi. Buxara və Xivəyə gəldikdə isə onların birincisi Rusiya ilə iqtisadi-ticarət əlaqələrinə meyl edirdi, ikincisi isə həm iqtisadi, həm də hərbi-siyasi cəhətdən zəif idi. Kokand "narahat qonşu" hesab edilirdi. (Аминов, 1966: 174).

Mərkəzi Asiyada işğal siyasətini həyata keçirməklə Xəzər dənizinin cənub-şərq sahillərinin tutulması da az əhəmiyyət daşımırdı. 1864-cü ilin dekabrında Asiya departamentinin direktoru Stremouxovun xarici işlər naziri A.M.Qorçakova təqdim etdiyi qeydlərində hələ vaxtı ilə I Pyotrun Xəzər probleminə diqqəti ön plana çəkilirdi. Stremouxov göstərirdi ki, hökumət bu ərazidə ticarət üçün yeni məntəqələr təşkil etməli, türkmən əhalisinin istehsal etdiyi ərzaq məhsulları, manufaktura malları, Mərkəzi Asiya pambığı, türkmən nefti Rusiyaya daşınmalıdır. Rus xarici siyasətinin

memorendumu kimi xarici işlər nazirliyi adından çar II Aleksandra təqdim olunan bu sənədin Xüsusi Komitənin 1865-ci il 4 yanvar tarixli iclasında müzakirə olunub həyata keçirilməsi məsləhət görülmüşdü. (Mehtiyeva, 2004: 69).

Orenburq general-qubernatoru Krijakovskinin hərbi nazir M.D.Milyutinə 7 aprel 1865-ci il tarixli məktubunda Mərkəzi Asiya ilə iqtisadi əlaqələrin möhkəmlənməsi, bu məqsəd üçün sərf edilən vəsait və nəzərdə tutulan hərbi ekspedisiyaların zəruriliyi göstərilirdi.

1865-ci ilin aprelin sonu, mayın əvvəllərində çağırılan Xüsusi Komitənin Mərkəzi Asiya ilə iqtisadi əlaqələrin genişləndirilməsi zərurəti qeyd edilmişdi. Lakin bu zaman Türküstan diyarında yaranmış vəziyyət, Buxara ilə toqquşmaq ehtimalı çar hökumətinin bu məsələni bir qədər təxirə salmağa məcbur etmişdi. (Аминов, 1966: 175).

Çar qoşunlarının 1864-cü ilin yayı və payızında Cənubi Qazaxıstanda həyata keçirdikləri hərbi əməliyyatlar burada Kokand xanlığının ağalığına son qoyulması ilə nəticələnmişdi. Lakin Kokand xanlığı bu ərazidən döyüşsüz əl çəkmək fikrində deyildi. Ona görə də Şimali Qazaxıstana hücum etmək istəyirdi. 1864-cü ilin payızında general-mayor Çernyayevin uğursuz hərbi yürüşü Kokand feodallarının itirilmiş mövqelərini yenidən qaytarılması ehtimalını gücləndirirdi. Odur ki, 1864-cü ilin noyabrın sonunda 10 minlik Kokand ordusu Alimkul xanın komandanlığı altında Arısı çayı boyuna çıxaraq Türküstanla Çimkəndə gedən yolu kəsdi. Görünür, Kokand ordusu Türküstan şəhəri və vilayəti üzərinə qəflətən hücuma keçməyi əvvəlcədən nəzərdə tutmuşdu. Dekabrın əvvəllərində onlar kazak dəstəsinin başçısı yasavul Serovla qarşılaşdılar. Şəhər əhalisi rusları müdafiə etdiyindən Alimkul şəhəri dağıtmayıb, onun əhalisini vergi verməyə məcbur edərək Daşkəndə qayıtmışdı. Şəhərin əhalisi Kokand zülmündən əzab çəkirdi. Daşkəndin rus meylli nümayəndələri rus komandanlığı ilə əlaqə yaratmağa çalışırdı. 1864-cü ilin sonunda şəhərdən Çimkəndə qaçan Daşkənd valisi Əbdürrəhimbəy şəhərin müdafiə istehkamlarının vəziyyəti haqqında Çernyayevi məlumatlandırdı. (Халфин, 1960: 133).

1865-ci ilin əvvəllərində Türküstan vilayətindən Rusiyanın paytaxtına gələn Türəxan Zeybuxanov Daşkəndin 50 tanınmış vətəndaşı adından şəhərin Rusiya tərkibinə qatılması müraciəti ilə çıxış etmişdi. O, əhalinin sonsuz müharibələrdən, soyğunçuluqlardan əziyyət çəkdiyini bildirmişdi. Lakin onun bu səyi baş tutmamışdı. Şəhərin tutulmasına çalışan qrupların birinin başında Məhəmməd Saatbəy dururdu. İri ticarət adamı olan bu şəxsin Petropavlovsk və Troitskidə ticarət şirkətləri vardı. Moskva və Nijni-Novqorod ticarət evləri ilə əlaqələri olan Saatbəy rus dilini bilirdi.

Rus imperiyası hökumət dairələrində Daşkəndin tutulmasına xüsusi diqqət verilirdi. Bu məsələ ilə Xüsusi Komitə üzvləri hərbi nazir Milyutin, daxili işlər naziri Valuyev, Şərqi Sibir, Orenburq general-qubernatorları, Asiya departamenti ciddi məşğul idilər. 1865-ci ilin yanvarın 25-də keçirilən Xüsusi Komitənin iclasında Mərkəzi Asiyanın siyasi və ticarət məsələləri ilə məşğul olmaq hüququ Orenburq general-qubernatorluğuna həvalə edilmişdi. Komitə Yeni Kokand və Sır-Dərya xəttini (İssıkkuldan-Aralaqədər ərazini) bir vilayətdə-Türküstan vilayəti şəklində birləşdirmək və onu Orenburq general-qubernatorluğunun tərkibində verilməsi məqsədə uyğun hesab edilmişdi.

Rus hökumətinin bu planından xəbər tutan Buxara əmiri, Kokandla Rusiya arasında gedən müharibədən istifadə edib, 1865-ci ilin əvvəllərində öz qoşunlarını Səmərqənddə toplayıb, buradan Ura-Tyuba vasitəsilə Fərqanəyə hərəkət etməyi qərara almışdı. Daşkənddə yaranmış ağır vəziyyəti nəzərə alan Türküstan general-qubernatoru M.Q.Çernyayev 1865-ci il aprelin ortalarında 1380 əsgər və 12 topla Daşkənd üzərinə hərəkətə başladı. Aprelin 28-də onun dəstələri Niyazbəy qalasına və Çirçik çayına yaxınlaşmışdılar. Daşkəndin 25 km.-liyində olan bu istinadgahlardan şəhər bombardman edilmişdi. Mayın 7-də rus qoşunları şəhərin 8 km.-liyində idilər. Bu zaman şəhər ətrafına gələn

Kokand xanı Alimkulun 60 minlik ordusu və 40 tonu ilə müharibəyə başladılar. Kokand ordusu bu döyüşdə məğlub oldu. Alimkul isə öldürüldü. Bu görkəmli sərkərdə və dövlət xadiminin ölümündən sonra Çernyayev Kokandın gələcək taleyi haqqında məsələ qaldırdı. Alimkulun ölümündən sonra Kokandda da hərbi sərkərdələr arasında daxili çəkişmələr başlandı. Çernyayevin qeyd etdiyi kimi, "Kokand hərbi rəisi" gənc Kokand xanı "Sultan Səid" xanla Daşkəndin rəisi quşbəyi Berdıbəy arasında mübarizə ciddi problemlərə səbəb oldu. Şəhər yoxsulları Sultan Səid xanı şəhərdən qovmağa nail oldular. O, 1865-ci il iyunun 9-dan 10-na keçən gecə 200 nəfərə yaxın adamı ilə Daşkəndi tərk etdi. Bu zaman Buxara əmiri Müzəffərin Daşkəndin işlərinə müdaxilə etməyin qarşısını almaq üçün Çernyayev kapitan Abramovun başçılığı ilə dəstəni Buxara yoluna göndərib, Sır-Dərya yolu üzərindəki Çinaz qalasını tutub şəhəri həm də 3 tərəfdən mühasirəyə aldı. Bu zaman rusların 1950 nəfər əsgəri və 12 topu, Kokandın isə 15 minlik qarnizonu qarşılaşdı. İyunun 14-dən 15-nə keçən gecə rus qoşunları Daşkəndə hücum etdilər. İki gün davam edən küçə döyüşlərindən sonra şəhər ağsaqqalları Çernyayevin yanına gəlib, rus hökumətinə tabe olduqlarını bildirdilər. Bu döyüşdə 63 top, çoxlu silah ələ keçdi. Ruslardan 25 ölən, 89 yaralanan, 28 kontuziya alan oldu. Kokand ordusu və yerli əhalinin itkiləri məlum deyildi. (Даблетов, 1979: 197-199)

Daşkəndin alınması rus qoşunlarının ölkənin içərilərinə hərəkət etməsilə nəticələndi. 1866-cı ilin yayında Çernyayevi əvəz edən yeni Türküstan hərbi qubernatoru D.İ.Romanovski hərbi əməliyyatları davam etdirməyə başlamışdı.

Daşkəndin işğalı çar hökuməti qarşısında onun gələcək taleyini müəyyənləşdirmək vəzifəsini qoydu. "Daşkənd xanlığı" problemi belə yarandı. Şəhərin tutulmasına qədər hökumət planında onun işğalı nəzərdə tutulmamışdı. Diplomatik dairələrin bir çox nümayəndələri, o cümlədən xarici işlər naziri A.M.Qorçakov Daşkəndin tutulması əleyhinə idilər. Lakin şəhər tutulduqdan sonra bu ərazilərdə "Daşkənd xanlığı" yaratmaq ideyası qarşıya çıxdı. Peterburq hakim dairələri belə hesab edirdilər ki, Daşkənd və onun ətraf əraziləri Rusiya imperiyasından asılı olan neytral ərazi kimi- "Daşkənd xanlığı" şəklində təşkil edilməlidir. Lakin İngiltərəni "vəhşilik" adlandırmışdılar. Ona görə də, sonralar Çernyayev və Krijanetvski bu xətdən əl çəkib güzəştə getməli oldular. 1865-ci ilin sentyabrında Daşkəndə səfəri zamanı Krijanovski Çernyayevin qarşısına nəyin bahasına olursa-olsun Türküstanda Rusiya imperiyasının hakim mövqe tutması planını təmin etməyi ona həvalə etdi.

Kokand xanlığı mühasirə edilib dağıldıqdan sonra bu ərazidə hegemonluq uğrunda Buxara əmiri iddia qaldırmışdı. Lakin Rusiya ilə müqayisədə Buxara həddən artıq zəif idi. Pis silahlanmış və təlim keçməmiş Rüstəm bəyin başçılıq etdiyi sərbazlar rus orduları ilə toqquşmada geri çəkilmişdilər. Krıjanovski tutulmuş ərazilərdə hərbi nəzarəti gücləndirməyi Çernyayevə tapşırmışdı. Buxara ilə Rusiya arasında silahlı mübarizənin genişlənməsinə baxmayaraq tərəflər öz məqsədlərinə uyğun məsələni diplomatik yolla həll etməyə üstünlük verirdilər. Rusiya xarici işlər nazirliyi çarın adından Orenburq general-qubernatorluğuna göstəriş verilmişdi ki, Rusiya ilə Daşkənd tacirləri arasında birbaşa sıx əlaqələr yaratsınlar. Bu münasibətlərdə bərabərlik statusuna əməl edilməli idi. Rus hökuməti ticarətdə Buxara əmirliyinə tarif güzəştləri etməli, əmirliyin Orenburqda ticarət nümayəndəliyinin fəaliyyətinə kömək edilməli idi. Eyni zamanda əmirin nəzərinə çatdırılırdı ki, ona Kokand xanlığı ilə bağlı hər hansı məsələyə müdaxilə etmək icazəsi verilmir. (Кастрелская, 1980: 87-88).

Lakin general Çernyayev mərkəzlə hesablaşmadan 1866-cı ilin yanvarın əvvəllərində özü atıcı diviziyanın başında duraraq Çinaz qalasına doğru hərəkət etməyə başladı, sonra isə ehtiyat qüvvələrini möhkəmləndirib Sır-Dərya ətrafı ilə Ağ çöl boyunca Cizak qalasını tutmaq istədi. Lakin Buxara qoşunları tərəfindən məğlub edilib geri oturduruldu. Cizak məğlubiyyəti onun sonrakı hərbi

əməliyyatlar keçirmək planına son qoydu. Daşkəndin alınmasında xidmətlərinə görə hökumət tərəfindən rəsmən təşəkkür alan və brilliyantlarla bəzədilmiş qızıl qılıncla mükafatlandırılan Çernyayev tutduğu vəzifəni baş qərargahın üzvü general-mayor D.İ.Romanovskiyə təhvil verdi. Bu dəyişiklik hadisələrin sonrakı gedişinə də təsir göstərdi. Tez-tez Sır-Dərya ilə Cizak arasında çar qoşunları ilə Buxara əmiri dəstələri arasında fasiləsiz toqquşmalar baş verirdi. Hərbi nazirə müraciət edən Orenburq general-qubernatoru Krıjanovski Buxaranın hərəkətlərinə son qoymaq üçün ona hücum etmək icazəsinin verilməsini istəyirdi. O, 1866-cı ilin aprelin 7-də hərbi əməliyyatlara başçılıq etmək üçün Daşkəndə gəldi. Çar hökuməti onun bu təklifini bəyənib onu Peterburqa çağırdı. O, qayıdana qədər Buxara ilə Rusiya arasında xırda toqquşmalar olmuşdu. 1866-cı ilin mayın 8-də iki tərəf arasında İrcar ətrafında döyüş baş verdi. Bu döyüşdə əmirin qoşunları dağıdıldı və əmir Kokand xanlığının sərhəd boyuna qaçdı. Bundan istifadə edən Romanovski bir neçə sərhəd məntəqələrini, o cümlədən-Xacənt şəhəri və Nau qalasının tutdu və onların Rusiyaya birləşdirilməsinə cəhd etdi. İrcar döyüşündən sonra Romanovski əmiri sülh müqaviləsi bağlamaq üçün şərtlərini təqdim etdi. Bu şərtlərə görə Buxara əmiri Mərkəzi Asiyada tutulmuş yeni əraziləri rus torpaqları hesab etməli, rus tacirlərinin bütün ölkədə, o cümlədən Buxarada ticarət azadlığı və təhlükəsizliyi təmin edilməli, rus hökumətinə İrcar məğlubiyyəti ilə əlaqədar təzminat verilməli idi.

1866-ci ilin avqustun 17-də Krjıjanovski nəzərdə tutduğu işğalçılıq planlarını həyata keçirmək üçün Daşkəndə gəldi. Oradan bir qədər sonra işğal olunmuş bütün ərazilərin Rusiya tərkibinə daxil edilməsi haqqında sənəd rəsmən elan edildi. Sentyabrın 5-də Rusiya-Buxara danışıqlarından dərhal sonra Buxara üzərinə yeni hücum başlandı. Sentyabrın 23-də çar qoşunları Buxara əmirliyi sərhədlərini keçib Ura-Tyuba, Cizak və Yanı-Kurqanı hücuma tutdular və rus orduları Səmərqənd yolu istiqamətinə çıxdılar. Zəif düşmən üzərində asan qələbə çalan Orenburq general-qubernatoru bundan sonra geri qayıtdı.

Beləliklə, işğal olunmuş ərazilərə xüsusi maraq göstərən rus iş adamları, tacirləri və burjuaziyası Mərkəzi Asiya ilə ticarət əlaqələrinin təzyiqindən ehtiyat edən Rusiya hökuməti onu müstəqil şəhər-xanlıq kimi tanımağı qərara almışdı. Uzun müddətli və gərgin mübahisələrdən sonra çar II Aleksandr 1866-cı il 12-iyun tarixli fərmanı ilə Daşkənd Rusiyaya birləşdirildi. Avqustun 27-də Mərkəzi Asiyanın bu böyük şəhəri rus təəbəliyini qəbul etdi. Bununla da Daşkənd çarizmin mühüm iqtisadi və hərbi-siyasi mülklərinin əsas mərkəzinə çevrildi. “Türküstan diyarının idarə edilməsi haqqında” 1867-ci il 1 yanvar fərmanına əsasən həmin ilin iyulun 11-də qəbul edilmiş Əsasnamə şəhərə də şamil edildi. 1870-ci ildə burada şəhər Duması yaradılmışdı. 1865-ci ilin ortalarında Buxara əmiri Müzəffər Kokandla Rusiya arasında gedən mübarizədən istifadə edib böyük bir ordu ilə Fərqanə vadisinə doğru hərəkət etməyə başlamışdı. O, Kokand xanlığının paytaxtını tutub daxili mübarizə nəticəsində bir neçə dəfə hakimiyyətdən qovulmuş və daha sonra Xudayar xanı hakimiyyətə gətirtmişdi. O, eyni zamanda Daşkəndə səfirlər göndərib general M.Q.Çernyayevdən təkidlə rus inzibati və hərbi idarə sistemi nümayəndələrinin Daşkənddən çıxması tələbini irəli sürmüşdü. Əmirin təkid və tələbləri rus hökumətini qorxuya saldı. Belə ki, Türküstan vilayətində rus hərbi qüvvələrinə qarşı Buxara və Kokandın növbəti birgə hərbi hücum təhlükəsi yaranırdı. (Халфин, 1965: 401-402)

Buxara-rus münasibətlərinin pis işlənməsi ilə əlaqədar Çernyayev ona tabe olan ərazidə bütün Buxara tacirləri və iş adamlarının həbs edilməsinə dair göstəriş verdi. Bundan əlavə hökumətin və Mərkəzi Asiya ilə sərhəd olan rus torpaqlarında bu tədbirin həyata keçirilməsinin tələb olunması zəruri hesab edilirdi. Şübhəsiz ki, bu, həm də Rusiyanın iş adamlarına zərbə demək idi. Çünki iki ölkə arasında ticarətin zəifləməsi eyni zamanda siyasi münasibətlərin pozulması demək idi. Bir çox yüksək vəzifəli dövlət adamları, o cümlədən xarici siyasətə başçılıq edən A.M.Qorçakov bu hərəkəti

genişləndirməklə yanaşı diyarın təbii sərvətlərini mənimsəməyə və xalqı istismar etməyə başladılar. (Шепелев, 1979: 63).

1865-ci ildə təşkil edilən Türküstan vilayəti 1867-ci ildə Türküstan general-qubernatorluğuna çevrildi. İşğal olunmuş ərazilərin inzibati quruluşu problemini müzakirə etmək üçün hərbi nazir general M.D.Milyutinin başçılığı üzrə Komitə yaradılmışdı. Onun üzvləri Krojanovski, Stremouxov, baş qərargah rəisi Geyden, hərbi əməliyyatların iştirakçıları Çernyayev, Romanovski, Vorontsov-Daşkov və b. idi. (Предтеченский, 1957: 47).

Krjanovskinin etirazına baxmayaraq Komitə Mərkəzi Asiya mülklərinin Orenburq general-qubernatorluğu tərkibindən çıxarılıb, ayrıca Türküstan general-qubernatorluğunun yaradılmasını qərara almışdı. Oraya Sır-Dərya və Yeddi Su vilayətləri daxil idi. Yeni inzibati ərazinin yaradılması haqqında Qanun 1867-ci il iyulun 11-də qəbul edilmişdi. Onun ilk qubernatoru vəzifəsinə general-adyutant K.P.Kaufman təyin olundu. O, Qafqaz hərbi əməliyyatlarında iştirak etmiş, hərbi nazirliyin dəftərxana rəisi olmuş, sonra isə Vilen quberniyasının başçısı vəzifəsini tutmuşdu. Çar II Aleksandr 17 iyul 1867-ci ildə Kaufmana qeyri-məhdud səlahiyyət vermişdi. Onun qarşısına Mərkəzi Asiyada rus ticarəti və sənayesi üçün diyarın içərilərinə doğru geniş və asan yol açmaq vəzifəsi qoyulmuşdu. Kaufman Türküstanın həqiqi ağası-sahibi olmuşdu. Təsadüfi deyil ki, yerli əhali ona “yarımpadşah” ləqəbi vermişdi. Onun tabeçiliyində olan N.P.Ostraumov qeyd edirdi ki, Kaufman öz sərəncamları ilə bəzən hətta ali hakimiyyət orqanlarına xəbərdarlıq edir, qanunçuluq qaydasında onun göstərişləri ilə hesablaşmaq və onu təsdiq etmək lazım gəlirdi. Bu, qeyri-məhdud səlahiyyətə malik olan bu dövlət məmuru Rusiya imperiyasının Mərkəzi Asiyada müstəmləkəçilik siyasətinin və yeni torpaqların zəbt edilməsi tapşırığını həyata keçirmək üçün Daşkəndə gəlmişdi. O, bu vəzifəsini həyata keçirmək üçün rus ticarət-sənaye burjuaziyasının, ilk növbədə çar hökumətini işğalçılıq planlarına xidmət edirdi. Rusiya sahibkarları diyarın təbii sərvətlərini istismar etməkdə və mənimsəməkdə maraqlı idilər. Hələ 1866-cı ildə Çernyayevin Mərkəzi Asiyadan Rusiyaya göndərdiyi təbii sərvətləri əsasında 1867-ci ildə Moskvada təşkil olunmuş etnoqrafik, kənd təsərrüfatı və sənaye məhsullarının sərgisində Türküstan diyarının zəngin kolleksiyası açılmışdı. Bu zamandan başlayaraq Rusiyanın müxtəlif peşə və ixtisas sahibləri çarizmin bu regiondan siyasətlərinin iştirakçıları olmuşdular. Türküstanın sahibi olan Kaufmanın təşəbbüsü ilə 1868-ci ildə Daşkənddə yarmarkalar yaradılmış, Rusiyanın İrbit, Nijni-Novqorod, Petropavlovsk, Troitsk kimi yarmarkaların zəngin adamlarının ticarət-sənaye məhsulları burada nümayiş edilir və satılırdı.

K.P.Kaufman Daşkəndə gəldikdən sonra vaxtı ilə Krjanovski ilə Buxara əmiri arasında əldə edilmiş sülh müqaviləsindən imtina etmişdi. İşğal olunmuş Yanı Kurqan əmirliyə qaytarılmışdı, Buxara əmirliyi üzərinə qoyulmuş təzminatda ləğv edilmişdi. Onun yerinə isə yeni layihə hazırlanıb əmir Müzəffərə göndərilmişdi.

Mərkəzi Asiyanın işğalı başa çatdıqdan sonra Türküstan general-qubernatorluğunun ərazisi 1533255 kv. verst idi, bu ərazi birlikdə götürüldükdə Almaniya, Fransa, Avstriya-Macarıstan ərazisinə bərabər idi. 1890-cı illərin axırlarında bu ərazi 5 vilayətə bölünürdü: Sır-Dərya, Fərqanə, Səmərqənd, Semireçye, Zakaspi. Bununla yanaşı Xivə və Buxara xanlıqları da general-qubernatorluğun nəzarəti altında idi. (Халфин,1960: 227-229).

Fərqanə vilayəti 1867-ci ildə Kokand xanlığının cənub ərazilərindən təşkil edilmişdi. Səmərqənd vilayəti 1887-ci ildə Zərəfşan dairəsindən təşkil edildi.

Çar hökuməti Buxara əmirliyinə qarşı daha ciddi müharibəyə hazırlaşırdı. Rus imperiyasının arxa cəbhəsini təmin etmək və möhkəmləndirmək məqsədilə Kaufman 1868-ci ilin yanvarında Kokand xanı Xudayarla ticarət müqaviləsi bağlamağa nail olmuşdu. Bu rus tacirlərinə xanlığın

ərazisində sərbəst və güzəştli vergi siyasətini həyata keçirmək, burada rus ticarət məntəqələri və karvansaraylar təşkil etməyə, rus ticarət nümayəndələrinin xanlığa gəlməsinə imkan verirdi. Lakin bununla bərabər çar hökuməti Kokandla münasibətlərini qaydaya salmaqla yanaşı Buxara əmirliyini də nəzarətdə saxlayırdı. (Халфин, 1965: 407).

Bu zaman Buxara əmirliyində vəziyyət son dərəcə gərgin idi. 1868-ci ilin I yarısında vaxtilə Daşkənddə olduğu kimi Buxara və Səmərqənddə də əmirliyin hakim dairələrinin iki qruplaşması: Buxara din xadimləri və feodal hakim qrupları arasında ziddiyyətlər mövcud idi. Hər 2 qrup Rusiyaya qarşı qəti hərəkət etməyi əmirdən tələb edirdilər. Onlar əmir Müzəffərin böyük oğlu Əbdülmalikə arxalanaraq əmiri zəiflikdə və cəsarətsizlikdə günahlandırırdılar. Müsəlman dini məktəblərinin şagirdlərinə arxalanan din xadimləri ruslara qarşı "müqəddəs müharibə" (qazavat) elan edirdilər. Bunlardan fərqli olaraq əmirliyin tacirləri, sənətkarları öz iqtisadi -maraqlarını nəzərə alaraq Rusiya ilə münasibətlərin nizama salınmasını tələb edirdilər. Bu iki qruplaşma arasında mübarizədə feodal aristokratiyası və din xadimləri qələbə çalmışdılar. 1868-ci ilin aprelində əmirin başçılıq etdiyi Buxara qoşunları Zərəfşan çayı boyuna çıxaraq Səmərqəndi tutub onu rus imperiyasının işğal zonalarına qatmışdırlar. Onlarla üzbəüz şərqdən Kaufmanın komandanlığı altında çar qoşunları da hərəkət edirdilər. Əmir ondan Cizakı və rus qoşunları tərəfindən işğal olunmuş digər əraziləri geri qaytarmağı tələb etmişdi, general-qubernator K.P.Kaufman isə qəbul edilmiş müqavilənin şərtlərini:-tutulmuş ərazilərdən əl çəkməsini və təzminat verməyi tələb etmişdi. (Mehtiyeva, 2004: 62).

Çar II Aleksandr və hərbi nazirlik K.P.Kaufmanın tələblərini bəyəndilər. 1868-ci ilin mayın 1-də əmirin qoşunlarının Zərəfşan çayı boyuna çıxarması ilə əlaqədar Kaufman Zərəfşanı keçib əmirliyin içərilərinə doğru hərəkət etmək göstərişi verdi. Həmin gün rus qoşunlarının təzyiqi altında əmirin sərbazları geri çəkildilər. Ordunu vahimə bürümüşdü. Bu hadisənin şahidi olan görkəmli tacir maarifçisi Əhməd Doniş belə təsvir edirdi: "Əmirin döyüşçüləri qaçmağı zəruri hesab etdilər. Hər kəs necə bacarırdı elə də, qaçırdı. Əmlaklarını və silahlarını ataraq gözləri gördüyü yerlərə qaçırdılar. Əmir də qaçırdı. Heş kəs vuruşmaq istəmirdi". (Очерки, 1966: 28).

Əmirin qoşunlarının Səmərqənddən geri çəkilməsi və qaçması şəhərdə müxtəlif qruplaşmalar arasında yeni ziddiyyətlərin kəskinləşməsinə səbəb olmuşdu. Feodal- klerikal dairələr şəhər tacir və sənətkarlarına qarşı müqavimət göstərməyə başlamışdılar. İş o yerə çatmışdı ki, şəhərdə din xadimləri ilə əmirin sərbazları arasında silahlı toqquşma baş verirdi. Digər tərəfdən isə şəhər yoxsulları ilə tacirlər arasında mübarizə qızışmışdı. Bu rəqabətdə Səmərqəndin ticarət-sənaye təbəqələri üstünlük əldə edirdilər. Səmərqənd əhalisi şəhər hakimi əmir Şirəlidən narazı idilər. Onlar əmirə yazdıqları məktubda onu başqa bir şəxslə əvəz etməyi tələb edirdilər. Əmir xalqın nəinki tələbini yerinə yetirirdi, hətta onların bir qrupunu cəzalandırmışdı. Əmir Müzəffər Germində öz iqamətgahına gedərkən Şirəli Səmərqəndə də bir neçə hörmətli adamı cəzalandırdı. Bu şəhərdə böyük bir hiddətə səbəb oldu. Tarixçi Mirzə Sami yazırdı ki, feodal-klerikal dəstələrlə Səmərqəndin ticarət və sənətkarları arasında toqquşma baş vermişdi. Bununlada şəhərin qapılarının rus qoşunlarının üzünə açmaq istəmələri vəziyyəti daha da gərginləşdirmişdi. Bu zaman Səmərqənd əhalisinin Şirəlinin hərəkətlərinə əhəmiyyət verməyən əmirdən narazılıqlarını bilmişdilər. Rus qoşunları komandanlığına əhalinin göndərdikləri məktubunda bildirilirdi ki, tezliklə rus qoşunları şəhəri tutsunlar. General Kaufman bunu göylərin bəxşeyşi hesab etmişdi. Belə ki, şəhər əhalisinin yığıncağında şəhəri könüllü olaraq ruslara vermək qərara alınmışdır. Həqiqətən Kaufman şəhər divarlarına yaxınlaşdıqda şəhər qapıları açıq idi. O, müqavimət göstərmədən Səmərqəndi tutub, bu barədə Peterburqa xəbər yollamışdı. Əmiri izləyən rus qoşunları 1868-ci ilin mayın 11-də iri yaşayış məntəqəsi Urqutu, 5 gün sonra isə onlar Kəttə-Kurqanı tutub əmirliyin paytaxtı Buxara isiqamətinə hərəkət etməyə başlamışdılar. (Мирза Азим

Сами, 1972: 66-67). İyunun 2-də Zirəbulaq dağı yüksəkliklərində Kəttə-Kurqanla Buxara arasında olan ərazidə həlledici döyüş olmuşdu. Pis təchiz olunmuş və təlim görməmiş əmirin ordusu bu dəfə də məğlub olmuşdu. Artıq Buxaraya gedən yol açıq idi. Əmir Müzəffər isə qaçmağa hazırlaşırdı.

Lakin Kaufmanın planında yalnız Buxara əmirliyini tamam ləğv etmək xətti durmurdu. Çar hökumətinin daxili və xarici siyasətində Mərkəzi Asiyada feodal despotizmini qoruyub saxlamaq xəttinə üstünlük verilirdi. 1868-ci ilin may-iyun hərbi əməliyyatları nəticəsində ruslar əmirliyin paytaxtını tutmuşdular. İyunun 23-də Rusiya imperiyası ilə Buxara əmirliyi arasında bağlanan sülh müqaviləsi nəticəsində əmir Xocənt, Ura-Tyuba və Cizak şəhərləri Rusiyanın tərkibinə qatılmışdı. Rus nümayəndəliklərinə, tacirlərinə bu ərazilərdə sərbəst və azad hərəkət və ticarət etmək, onların şəxsiyyətini və malik olduqları malları qorumaq, təhlükəsizliklərinin təmin edilməsinə təminat verilirdi. Çar hökuməti 500 min rubl məbləğində təzminat almağa müvəffəq olmuşdu. İşğal edilmiş ərazilərdə Zərəfşan vilayəti yaradılmışdı. Bununla da çar hökuməti Mərkəzi Asiyanın geniş ərazisinin böyük hissəsini öz nəzarəti altına keçirmişdi.

Rus xarici siyasətində Mərkəzi Asiyanın işğalı onun hərbi-siyasi və ticarət-sənaye dairələrinin nümayəndələri tərəfindən razılıqla qarşılanmışdı. O zaman Rusiya dövrü mətbuat səhifələrində bu hadisə ilə əlaqədar xüsusi məqalələr nəşr edilməyə başlanmışdı. Bu hadisə rus burjuaziyası üçün əlverişli nüfuz dairəsinə sahib olmaq imkanı yaratmaqla yanaşı, onun Şərqdə-Xəzər sahili boyu əraziləri və Türkmənistanı işğal etmək, Xivə xanlığı üzərində öz protektoratlığını təmin etmək imkanı verirdi.

1881-ci ildə Aşxabad tutuldu, işğal edilmiş bütün türkmən rayonlarından Zakaspi vilayəti təşkil edildi. İnzibati mərkəz Aşxabad olan bu vilayət Qafqaz canişinliyinin tərkibinə daxil edildi.

1884-cü ildə Mərv vahəsinin müqəddəratı həll edildi. Mart ayında ruslar buranı tutdular. 1895-ci ildə Pamirin ələ keçirilməsi ilə Mərkəzi Asiyanın tabe edilməsinin sonuncu mərhələsi idi.

XIX əsr, xüsusilə onun ikinci yarısı Qərb dövlətlərinin müstəmləkə ölkələrinin işğalının daha da genişlənməsi ilə xarakterizə olunur. Vaxtı ilə, V.İ.Leninin "Rusiyada kapitalizmin inkişafı" (1916) əsərində göstərdiyi kimi kapitalizm öz hakimiyyət dairəsini daim genişləndirmədən yaşayıb inkişaf etdirə bilməz, yəni ölkələri müstəmləkəyə çevirmədən, köhnə dövlətləri dünya təsərrüfatını çaynağına keçirmədən yaşaya bilməz. (Мирза Азим Сами, 1972: 69-70).

Çar Rusiyasının gələcəkdə isə o dünya kaştal sisteminin II qrupunun sağ sırasında olmasına baxmayaraq, kaştal cəmiyyətinə xas olan cəhətlər ona da məxsus idi. Mərkəzi Avropada, Krım və Balkanlarda öz güclü qərb rəqibləri ilə mübarizədə məğlub olan Rus çarizmi xarici siyasətində çoxdan marağı olan Türküstanı (müasir Özbəkistanı) öz təsir dairəsinə keçirməyə çalışırdı. Çar hökuməti XIX əsrin II yarısında bölmək uğrunda Qərb dövlətlərinin planında öz yerini, nüfuzunu, onu həyata keçirməyə cəhd etdiyi Mərkəzi Asiyanı tutmaqdan çəkinmirdi. Lakin onun əsrin əvvəllərində iqtisadi, hərbi, dövlət idarəçiliyi, maarif və mədəniyyət sahəsində zəifliyini göstərən Krım müharibəsi, çarizmin diplomatik məğlubiyyəti ölkənin bütün dairələrində kilsədən tutmuş aşağılara qədərki dairələrində ölkədə yeni islahat keçirilməsinin günün vacib problemi kimi qarşıya qoyurdular. Təsadüfi deyil ki, 1861-ci il 19 fevral "əsasnaməsi və nizamnaməsi" kimi həyata keçirilən 1861-ci il kəndli islahatı heç də bütün imperiyanı təhkimçilikdən xilas etmirdi. Bu islahat imperiyanın yalnız rus əhalisinin yaşadığı ərazilərdə yaşayan xalqlara aid idi. Digər tərəfdən 60-70-ci illərdə həyata keçirilməsi nəzərdə tutulan iqtisadi, inzibati-idarəçilik, hərbi, maarif, təhsil və mədəniyyət sahəsindəki islahatları, Rusiyanı geri qalmış aqrar təsərrüfat ölkəsindən qismən inkişaf edən aqrar-sənaye ölkəsinə çevirməli idi.

Hökumətin yuxarı dairələrində "Böyük islahat kimi qələmə verilən 1861-ci il islahatı əslində təhkimçilik münasibətlərini ləğv etməkdən irəli belə getmirdi".

Çar hökuməti belə hesab edirdi ki, Rusiyada məhsuldar qüvvələrin daha da inkişafı üçün digər rus olmayan ölkələrin vətəndaşlarını amansız istismar və soyğunçuluq etmək lazımdır. Qafqaz, Mərkəzi Asiya, Sibir və bu qəlibdən olan digər zəif dövlətlər və xalqlar buna əyani sübut idi.

1861,1864-70-ci illərin islahatlarından sonra rus fabrikantları və tacirləri Ost-İndiya kompaniyası haqqında düşünürdülər. Rus fabrikantlarının və tacirlərinin bununla yanaşı Buxara, Xivə, Kokand xanlıqlarına da çoxlu şirkət və kantorları vardı. Məsələn, Vladimir və İvanov, Voznisenski fabrikantları və manafaktura sahiblərini Türküstan bazarlarında böyük məhsulları vardı. Eyni zamanda Buxara, Səmərqənd, Əndican, Xivə tacirlərinin Moskva, İvanova, Peterburq, Volqaboyu Sibir və s. yerlərdə böyük gəlir gətirən mülkləri, fabrikləri, sənaye və ticarət müəssələri vardır.

Çar hökumətinin Mərkəzi Asiyanı işğal etməsi nəticəsində o, həm də onun yerli əhalisinin ucuz işçi qüvvəsinə də sahib olmaq istəyirdi. (Галуза, 1965: 230-231).

Rusiyanın Mərkəzi Asiyaya hərəkət etmək cəhdi, bir çoxları ilə onun müttəfiq olmasına baxmayaraq onları, xüsusən də Rusiyanın rəqiblərini narahat edirdi. Lakin çar diplomatiyası, xüsusən də onun daha çox tanınmış və məşhur nümayəndəsi olan xarici işlər naziri A.M.Qorçakov Rusiyaya qarşı bu düşmənçilik münasibətlərini qismən zəiflətməyə çalışırdılar. Qərbin dövlət başçılarına yazdığı 21 noyabr 1864-cü il tarixli rəsmi məktubunda o, bildirirdi ki, Avropa dövlətləri kimi Rusiyanın məqsədi bu vəhşi və mədəniyyətsiz xalqı dünya sivilizasiyasına qovuşdurmaq üçün onu koloniyaya çevirmək idi. Yəni çar hökuməti çıxış yolunu bunda görürdü. Çar hökuməti Mərkəzi Asiyaya soxulmaq üçün oraya vaxtaşırı hərbi və elmi ekspedisiyalar göndərirdi. Onlardan biri belə islahatlardan xeyli əvvəl, 1839-cu ildə general Perovskinin başçılığı ilə Xivə xanlığına göndərildi (ekspedisiya heyəti idi). Son dərəcə gizli hazırlanmış bu hərbi səfərdən, ilk vaxtlar hətta o zaman Qərbin qüdrətli dövləti olan İngiltərənin xəbəri belə yox idi. Lakin bu çox sürmədi. Sonradan məlum olmuşdu ki, ingilislər bunu bilmiş və hətta ruslardan xeyli əvvəl Xivəyə gələrək burada Xivə əsirlərinin qul sifəti ilə almışdılar. Bunun isə məqsədi Xivəni gələcəkdə ingilis vassalına çevirmək idi. (Mehdiyeva, 2004: 63).

1841-1842-ci illərdə Buxara və Xivə ilə ticarət-siyasi müqavilə bağlamaq üçün Rusiyadan Buxaraya və Xivəyə gələn rus diplomatik səfirliyi nəzərdə tutulan məqsədə nail ola bilməmişdi. (Халфин, 1965: 407).

İngiltərə isə öz növbəsində hər vasitə ilə Rusiyanın Buxara və Xivə ilə münasibətlərini düzəltməyə çalışır, onun Mərkəzi Asiyaya irəliləməsinə mane olmağa çalışırdı. İngilis agentləri Konalli və Stoddart rusların vədlərini pozmaqla ittiham edilərək, 1842-ci ildə Xivə xanın əmri ilə edam olunmuşdular.

Rusiyanın Mərkəzi Asiyada keçirdiyi hərbi əməliyyatlar Britaniya imperiyası hakim dairələrini ciddi narahat etməyə başlamışdı. 1868-ci ilin sonu-1869-cu ilin əvvəllərində ingilis hökuməti Rusiyanın bu regionda sonrakı hərəkətlərinə mane olmağa çalışaraq, rus hökuməti qarşısına Mərkəzi Asiyanın təsir dairələrinə bölünməsi məsələsini qoymuşdu. İngiltərədə Qladstonun liberal hökuməti adından İngiltərə xarici işlər naziri Lord Klarendon Rusiyanın Londonda səfiri Brunova müraciət edərək “neytral Mərkəzi Asiya xətti” sərhədlərini müəyyən etmək təklifi ilə müraciət etmişdi. 1869-cu ilin əvvəllərində bu məsələ ilə bağlı başlanan danışıqlar oktyabrın əvvəllərinə kimi davam etmişdi. İngilis diplomatiyasını narahat edən Rusiyanın işğal ərazilərindən artıq torpaqlara sahib olmaq idi. İngilislər Rusiyanın bu regionda tutduğu 230 verst ərazidən daha çox-300 verst sahəyə yiyələnməyi nəzərdə tutuldular. Təxminən 10 aya qədər danışıqlar nəticəsində Rusiyanın işğal etdiyi ərazidə qalması, İngiltərənin isə Əfqanıstanda və Kaşqarda möhkəmlənməsilə nəticələnmişdi. (Солженицын, 2001: 442).

Rusiyanın tutduğu ərazi Əfqanıstan və İranın sərhəddinə çatdıqda İngiltərə ilə münasibətlər kəskinləşdi. İngiltərə Əfqanıstan əmirini Rusiyaya qarşı çıxmağa məcbur etdi. 1885-ci il martın 18-də çar qoşunları Pənc vahəsində əfqan dəstələrini darmadağın etdi. Bu məğlubiyyətlə əlaqədar olaraq İngiltərə 1885-ci il sentyabrın 10-da müqavilə bağlamağı təklif etdi. Müqaviləyə əsasən Rusiya Kuşka çayına qədər olan əraziyə də sahib oldu. 1895-ci ildə Pamiri almaqla Mərkəzi Asiyanın Rusiyaya qatılması başa çatmış oldu.

Mərkəzi Asiya və Qazaxıstanın sosial-iqtisadi və siyasi quruluşunun geriliyi, hərbi qüvvələrinin zəifliyi belə böyük bir regionun tezliklə Rusiya tərəfindən zəbt olunmasının əsas səbəbi idi.

Çarizmin işğalına qarşı hər şeydən əvvəl feodal-əyanlar və iri müsəlman ruhaniləri fəal çıxış edirdilər. Ən böyük çıxışlar 1885-ci il Fərqanə və 1898-ci il Əndican üsyanı olmuşdu. Əndican üsyanı yatırıldıqdan sonra 546 nəfər məhkəməyə cəlb olunmuş, üsyanın başçısı Məhəmmədəli və onun yaxın tərəfdarları dar ağacından asılmış, bir çoxları isə Sibirə-katorqaya sürgün edilmişdilər.

Rusiyanın Mərkəzi Asiyanı və Qazaxıstanı işğal etməsi çar ordusunun istilaçılıq yürüşünün nəticəsi idi. Bu xalqların tarixinə aid yazılmış əsərlərdə bəzən könüllü birləşmək, Rusiyaya birləşmək üçün müraciət edilməsi faktları da mövcuddur. Lakin Mərkəzi Asiya Qazaxıstanı zəbt etmək üçün Rusiyanın hələ XVIII əsrin 30-cu illərindən başlayaraq XIX əsrin axırlarına qədər apardığı təkcə döyüş əməliyyatlarını yada salmaq kifayətdir ki, bu prosesin əsl mahiyyəti-yaxşı silahlanmış və təşkil edilmiş rus ordusunun Mərkəzi Asiya dövlətlərinin müqavimətini asanlıqla qırması nəticəsində regionun alınması aydınlaşsın. Eyni zamanda Mərkəzi Asiya və Qazaxıstanda yürüdülən milli-müstəmləkəçilik siyasəti Rusiyanın hakimiyyətdə olan qüvvələrinin xətti idi. Bu siyasət Mərkəzi Asiya və Qazaxıstan xalqlarına yeni ağır iqtisadi və milli zülm gətirmişdi.

Onu da qeyd etmək lazımdır ki, rus çarizminin müstəmləkəçilik siyasətinin mənfi tərəflərinə baxmayaraq, Mərkəzi Asiya və Qazaxıstanın Rusiyaya qatılması onların təsərrüfatlarının Rusiyanın iqtisadi həyatı və dünya əmtəə dövriyyəsinə cəlb edilməsində müəyyən rol oynamışdı. Bu da nəticə etibarı ilə regionda iqtisadi və sosial dəyişikliklərə səbəb olmuşdu. XIX əsrin sonu-XX əsrin əvvəlində kənd təsərrüfatı məhsullarının ayrı-ayrı sahələri üzrə (pambıqçılıq, maldarlıq, taxılçılıq) ixtisaslaşma özünü göstərirdi. Əmtəə-pul münasibətlərinin və bazar üçün məhsul istehsalının inkişafı sözsüz ki, muzdlu əməkdən istifadəyə gətitrib çıxartmışdı. Yerli burjuaziya və fəhlələrin təşəkkülü prosesi başlanmışdı. Təsərrüfat sahələri bərpa edilmiş və iqtisadiyyatda kapitalist elementlərinə keçirilməsinə imkan yaranmışdı.

Mərkəzi Asiyanın Rusiyaya qatılmasından sonra rus alimləri bu ölkələrin hər cəhətdən öyrənilməsinə başladılar. Elm, maarif və səhiyyənin inkişafına diqqət bir qədər artılırdı. Rus alimləri Mərkəzi Asiya və Qazaxıstanın maddi ehtiyyatlarının, tarix və mədəniyyətinin öyrənilməsinə başladılar. Əlbəttə, Rusiya bu sahədə öz dövlətinin marağını daha çox nəzərə almışdı. Feodal müharibələri, tayfa və qəbilələr arasında mübarizəyə son qoyuldu. Bütün bunlar isə Mərkəzi Asiya və Qazaxıstanın sosial-iqtisadi və ictimai-siyasi həyatına öz təsirini göstərirdi. Lakin bir fakt da danılmazdır ki, işğaldan sonra Mərkəzi Asiya və Qazaxıstan öz iqtisadi və siyasi müstəqilliyini itirmişdi. (Mehdiyeva, 2004: 64-65).

Zakaspi vilayəti 1881-ci ildə Zakaspi şöbəsindən, Axal-Təkin, Mərv və Təcan dairələrindən təşkil edilib, 1890-cı ilədək Qafqaz canişinliyinin tərkibində idi. 1890-1897-ci illərdə bu vilayət bilavasitə hərbi nazirliyin ixtiyarında idi, sonra yenə Türküstan general-qubernatorluğuna birləşdirildi. Vilayətlər qəzalara, qəzalar isə volostlara, volostlar da kənd icmalarına bölünürdü. Qubernatorluğun əhalisinin sayı 1897-ci il siyahıya alınmasına görə 5280983 nəfər idi. Əhalinin milli tərkibi isə belə idi:-

özbəklər-35,77%; qazax və qırğızlar 44,36%; trükmənlər-4,98%; taciklər-6,73%; qaraqalpaqlar-2,26%; ruslar-3,75%; . (Нарочницкий, 1956: 39).

General-qubernatorluğun əhalisinin milli tərkibi rəngarəng olsa da, əhali vilayətlər üzrə elə qruplaşmışdılar ki, hər bir vilayətdə bu və ya digər millət sayca üstünlük təşkil edərək bu vilayətlərə müəyyən milli xarakter verirdi. Semireçye və Sır-Dərya vilayətlərində özbəklər üstünlük təşkil edirdi. Zakaspi vilayətində isə türkmənlər yerləşirdi.

Rus əhalisi isə başlıca olaraq şəhərlərdə və dəmir yol xətti boyunca yerləşmişdilər.

1890-cı illərin axırlarında general-qubernatorluğun əhalisinin 13,83%-ni şəhər, 86,17%-ni kənd əhalisi təşkil edirdi. Kənd əhalisi həyat tərzinə görə oturaq və köçəri həyat keçirirdi. (Йолдашев, 1969: 112).

Türküstan general-qubernatorluğunun siyasi-inzibati quruluşu onun yerli əhalisinin müstəmləkə zülmünə və milli əsarət altına alınmasına əsaslanırdı. İnzibati quruluş açıq müstəmləkəçi xarakter daşıyırdı. Diyarın əhalisi həm çar hakimiyyət orqanları, həm də yerli hakimlər tərəfindən istismar edilirdi.

**Müstəmləkəçi hakimiyyət sisteminin strukturu və funksiyaları.**

Çar höküməti Orta Asiyanın işğal edilməsinin başlanğıc mərhələsində idarəetmənin təşkilinə başlayır. Senat 2 mart 1865-ci ildə Orenburq general-qubernatorluğunun tərkibində “Türküstan vilayətinin yaradılması haqqında” fərman verir. Vilayətin inzibati mərkəzi Çimkənd şəhəri idi. Çar qoşunlarının Daşkəndi ələ keçirməsindən sonra bu şəhər Rusiyanın tərkibinə rəsmən daxil edilənə qədər də faktiki surətdə vilayətin mərkəzi idi. İmperiyanın tərkibinə rəsmi surətdə daxil edildiyi dövrdən Daşkənd və onun ətrafı Daşkənd rayonu adı ilə xüsusi inzibati vahid təşkil edirdi.

Vilayəti öz əlində hərbi və mülki hakimiyyəti birləşdirən general-qubernator rəhbərlik edirdi. Yerlərdə idarələrə şöbə rəisləri başçılıq edirdi, onlar eyni zamanda hərbi komendatlar idi. Onlar yerli əhali üzərində polis nəzarətini həyata keçirir, vergiləri toplayır, müsəlman məhkəmə müəssisələrinin fəaliyyətinə nəzarət edirdilər.

1865-ci il “Əsasnaməsinin” tətbiq edilməsinin praktiki nəticəsi tipik işğal rejiminin yaradılması oldu. Bu rejim Çar ordusunun ərzaqla təchiz edilməsini, əhalidən vergi toplanmasını təmin etməli idi.

Lakin tezliklə məlum oldu ki, belə bir rejim kifayət qədər effektli deyildir. Çarizmin fikrincə, bu rejim iqtisadi vəzifələr üçün heç də tam yararlı deyildir, başlıcası isə yerli əhalinin Türküstanın Rusiyanın tərkibinə daxil edilməsinə müqavimət göstərən sosial təbəqələrinin siyasi təsirini aradan qaldırmağa qadir deyildir. Çarizm idarəetmənin daha mükəmməl formasını axtarmağa məcbur oldu. 1867-ci ilin iyulunda Rusiya imperiyasının tərkibində Türküstan general-qubernatorluğunun yaradılması haqqında fərman verilir. Onun paytaxtı Daşkənd idi. Tüerküstan general-qubernatorluğu ilə yanaşı Türküstan hərbi dairəsi də yaradılır.

Diyarın idarə edilməsi üçün əsas 1867-ci il Müvəqqəti əsasnaməsi idi. Bu Əsasnamənin mahiyyəti belə idi:

1. hərbi və inzibati hakimiyyətin bölünməzliyi və onun diyarda bir əldə cəmlənməsi,
2. bu orqanların quruluşunu mümkün qədər Rusiyanın digər yerlərindəki orqanların quruluşuna yaxınlaşdırmaq,
3. aşağı, xüsusi xalq-ictimai hakimiyyət orqanlarının seçkili olması,
4. Rusiyanın maraqlarına ziyanlı olan qayda-qanunların bu müəssisələrdən təmizlənməsi və s. (Аминов, 1959: 82).

1867-ci il Əsasnaməsinə görə, qeyri-siyasi xarakterli bütün işlər üzrə yerli əhalinin daxili idarəsi “Xalqın öz içərisindən seçilmişlərə” (qazılar, bəylər, ağsaqqallar) verilməli idi. Koloniyada digər

bütün hökumət funksiyaları hərbi administrasiyasının-general-qubernatorun, vilayət qubernatorlarının və qəza rəislərinin əlində cəmləşmişdi.

İdarəetmənin belə "hərbi –xalq idarəetmə" çar hökumətinin yeni işğal edilmiş ərazidə öz qarşısına qoyduğu vəzifəyə-özünün hərbi-siyasi mövqeyini gücləndirmək, yerli torpaq sahiblərinin və din xadimlərinin mövqeyini zəiflətmək, çarizmə qarşı xalq üsyanlarına divan tutmaq təmamilə uyğun gəlirdi.

80-ci illərin ortalarında məlum oldu ki, "hərbi-xalq idarəetmə" sistemi Rusiya ticarət-sənaye burjua dairələrinin və yerli sahibkarların maraqları ilə bağlı olan yeni münasibətlərin inkişafını ləngidirdi.

1886-ci il Əsasnaməsinin 8 maddəsinə əsasən Türküstan general- qubernatorluğu (məhkəmə, maliyyə və poçt-teleqraf idarələri istisna olmaqla) Rusiya imperiyasının hərbi nazirliyinin tabeliyində olmamağı halbuki həmin illərdə Rusiyanın daxili işlər nazirliyinin sərəncamında idi. Beləliklə, Türküstan diyarı 1917-ci ilə qədər hərbi nazirliyin tabeliyində qalır. (Пясковский, 1958: 12). 1886-cı il Əsasnaməsinə uyğun olaraq Türküstan administrasiyasının strukturu sisteminə yeni bir orqan-Türküstan general qubernatorunun Soveti daxil edildi. Bu orqan ümumi inzibati xarakterli, vergi və zemstvo mükəlləfiyyətləri ilə bağlı olan məsələlərin həll edilməsində qanunvericilik təşəbbüsü hüququna malik idi. Düzdür, diyarın idarə edilməsinə dair mühüm məsələlərin müzakirəsində kollegiyalıq bir çox hallarda formal xarakter daşısa da, yeni orqan hər halda müəyyən dərəcədə diyarın baş rəislərinin "bürokratik radikalizmini" məhdudlaşdırırdı. Dəyişikliklər Türküstan general-qubernatorunun xarici siyasəti məsələlərindəki səlahiyyətlərinə də toxunurdu. Buxarada Rusiya imperatorluğunun siyasi agentliyi yaradıldı. Bu agentlik Rusiya xarici işlər nazirliyinin orqanı idi. 1889-cu ildən Türküstanda bütün xarici siyasi məsələlər Xarici İşlər Nazirliyinin nəzarəti altına keçdi.

Türküstan general qubernatorluğu inzibati cəhətdən vilayətlərə bölünürdü. Türküstan general qubernatorluğu əvvəlcə iki vilayətə-Sır-Dərya və Semireçyeyə bölünmüşdü. Sonralar işğal edilmiş ərazilər hesabına 1868-ci ildə Zərəfşan dairəsi, 1873-cü ildə Amu-Dərya şöbəsi, 1876-cı ildə isə ləğv edilmiş Kokand xanlığı hesabına Fərqanə vilayəti yaradıldı. (История, 1958: 136). 1886-cı ildə Zərəfşan dairəsi Səmərqənd vilayətinə çevrildi. Amu-Dərya şöbəsi Sır-Dərya vilayətinə birləşdirildi. Semireçye vilayəti 1882-ci ildə Türküstan general qubernatorluğunun tərkibindən çıxarılaraq Çöl general qubernatorluğuna verildi. Lakin 1899-cu ildə Semireçye vilayəti yenidən Türküstan general qubernatorluğunun tərkibinə daxil edildi. Həmin ildə beşinci vilayət-əvvəllər Qafqaz canişinliyinin tərkibində olan Zakaspi vilayəti də Türküstan general qubernatorluğunun tərkibinə daxil edildi.

XIX əsrin sonunda Türküstan general qubernatorluğunun ümumi ərazisi 1738918 kv.kilometr idi. Əhalinin sayı isə 5280983 nəfər idi. Diyar əhalisinin sayı 1911-ci ildə 6492629 nəfərə, 1915-ci ildə 6779138 nəfərə çatmışdı. Əhalinin cəmi 7.6 faizini ruslar təşkil edirdi. Vilayətlər üzrə əhalinin sayı aşağıdakı kimi idi:

| **Vilayətlər** | **Bütün əhali** | **Ruslar** |
|---|---|---|
| Sır-Dərya | 1950243 | 11.0 |
| Semireçye | 1260392 | 6.5 |
| Fərqanə | 2211864 | 2.8 |
| Səmərqənd | 886392 | 7.6 |
| Zakaspi | 470852 | 19.0 |

Çarizmin Türküstanda həyata keçirdiyi inzibati ərazi bölgüsü tarixi, təbii, iqtisadi və milli xüsusiyyətləri nəzərə alınmırdı. Yerli xalqların yaşadıqları ərazilər ayrı-ayrı hissələrə bölünərək

müxtəlif inzibati vahidlərin tərkibinə daxil edilirdi. Vilayətlər qəzalara, sonuncular isə öz növbəsində volostlara bölünürdü.

Orta Asiyanın müqəddəratı generallara və hərbi qubernatorlara tapşırılmışdı. Onlara “milli sülhü” qorumaq tapşırılmışdı. Milli ucqarlarda çarizmin yeritdiyi siyasət milli istismar, yerli xalqların siyasi və mülki hüquqlardan məhrum edilməsi, milli mədəniyyətin, dil, mətbuat və məktəblərin sıxışdırılması, milli qırğınların törədilməsi siyasəti idi. Orta Asiya ərazisi həmişə hərbi vəziyyətdə saxlanılırdı. Müsəlman əhalisinin çoxluq təşkil etdiyi şəhərlərdə (Daşkənd, Kokand, Səmərqənd və s.) yeni qalalar tikilirdi. Artilleriya ilə təchiz edilən bu qalalar yerli əhalinin üsyan edəcəyi şəraitində çar ordusu üçün dayaq nöqtələrinə çevrilməli idi. Çar ordusunun 1905-ci ilin əvvəllərində Türküstanda ümumi sayı 63 min nəfərə çatmışdı.

Rus çarının 1867-ci il fərmanına əsasən Türküstan general qubernatoruna geniş səlahiyyətlər verilmişdi. Türküstan general qubernatorluğunun ilk qubernatoru Kaufman idi. General qubernator diyarda mülki və hərbi idarələrin rəhbəri idi. İlk general qubernatora bütün siyasi, sərhəd və ticarət məsələlərini həll etmək səlahiyyəti verilmişdi.

General qubernator siyasi baxışlarına görə bu və ya digər adamı beş il müddətinə diyardan sürgün etmək, hakimiyyətə müqavimət göstərdiyi şəraitdə hərbi məhkəməyə vermək hüququna malik idi. Əgər xarici ölkə vətəndaşının diyara gəlməsi arzu edilməz hesab olunurdusa, diyarın rəhbəri onu da buradan çıxarmaq hüququna malik idi. General qubernator əhali üzərinə qoyulan verginin miqdarını da müəyyənləşdirirdi.

General qubernator çar tərəfindən təyin edilirdi və xidməti işlərə görə imperiyanın hərbi nazirliyinə tabe idi. General qubernatorun rəhbərliyi altında 7-10 nəfərdən ibarət Sovet fəaliyyət göstərirdi. Buraya vilayətlərin hərbi qubernatorları, Türküstan hərbi dairəsinin ştab rəisi və maliyyə nazirliyinin nümayəndəsi daxil idi. Sonra sovetin tərkibinə general qubernatorun köməkçisi, Daşkənd məhkəmə palatasının prokuroru, diyarın əkinçilik və dövlət əmlakı idarəsinin rəisi də daxil edilirdi. Bunlardan əlavə, general qubernatorun sərəncamı ilə Sovetin iclaslarına vilayət məhkəməsinin sədri, Daşkənd məhkəmə palatasının prokuroru, general qubernator dəftərxanasının işlər üzrə müdiri, Buxaradakı siyasi agent də dəvət edilirdi. General qubernatorluğun rəsmi mətbuat orqanı rus dilində nəşr edilən “Türküstan xəbərləri” qəzeti idi. (Фомченко, 1960: 97-98).

**Nəticə**

Mərkəzi Asiyanın Rusiya imperiyası tərəfindən işğalı Krım müharibəsindən sonra son dərəcə aktual məsələ idi. Çar hökuməti bu regionda özünün diplomatik və iqtisadi ağalığını saxlamaq üçün mərhələlər üzrə geniş hərbi-siyasi hücum təşkil etməsi nəticəsində Mərkəzi Asiyanın zəngin və geniş torpaqlarını öz tərkibinə birləşdirməyə nail olmuşdu. Bununla kifayətlənməyən çar hökuməti regionda öz hərbi-siyasi nüfuzunu möhkəmləndirmək məqsədilə 1867-ci ildə Sibir general-qubernatorluğunun qəti etirazlaqlarına baxmayaraq, Türküstanda yeni hərbi rejim Türküstan general-qubernatorluğunu yaratmağa, Mərkəzi Asiyanı təmamilə isə özünə tabe olan bir diyara çevirməyə nail oldu.

İşğal olunmuş ərazilərdə Rusiya Hərbi Naziri Milyutinin başçılıq etdiyi komitənin qərarı ilə müstəqil Türküstan general-qubernatorluğu yaradıldı. Komitə Mərkəzi Asiyanın Orenburq general-qubernatorluğuna tabe olan vilayətləri (Sır-Dərya, Yeddi Su və b.) Orenburq general-qubernatorluğuna alıb, yeni yaradılmış Türküstan general-qubernatorluğunun tərkibinə qatmış oldu.

Tədqiq edilən dövrdə çarizmin Türküstanda tətbiq etdiyi idarəetmə sistemi hökumətin işğalçılıq siyasətinə qulluq edirdi. Bu sistem zorakılığa, qeyri-iqtisadi və iqtisadi məcburiyyət metodlarına, yerli xalqların dövlətçilik mexanizmlərinin məhv edilməsinə əsaslanırdı.

Müstəmləkəçi hakimiyyət sisteminin təşkili prosesinin əsasında aşağıdakı komponentlər dururdu:

- işğal olunmuş ərazidə Rusiyanın özündə tətbiq edilmiş inzibati-ərazi bölgüsü həyata keçirmək;
- hərbi, mülki və məhkəmə hakimiyyətinin mərkəzləşdirilməsi;
- diyarın maddi ehtiyyatlarını mənimsəmək üçün idarəetmə aparatının təkmilləşdirilməsi.

Ümumiyyətlə, XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində Türküstanda fəaliyyət göstərən müstəmləkəçi hakimiyyət sistemi yerli xalqları milli dövlətçilikdən məhrum edirdi, sosial-mədəni həyata zərbə vururdu.

## REFERENCES


- Аминов А.М. Экономическое развитие Средней Азии со второй половины XIX столетия до первой мировой войны. Ташкент, 1959, 371s.
- Аминов А.М., Бабаходжаев А.Х. Экономическое и политическое последствия присоединения Средней Азии к России. Москва, 1966, 210s.
- Очерки истории Казахстана XIX в. Пособие для учителей. Алма-Ата «Мектеб», 1966, 191s.
- Галуза П.Г. Аграрное отношения в южном Казахыстане. Алма-Ата, 1965, 345s.
- Даблетов Дж. и Ильясов Аман. Присоединение Туркестана к России. Алма-Ата, 1979, 254s.
- История Узбекской ССР Том I, книга вторая. Ташкент, 1958, 494s.
- Кастрельская З.Д. Из истории Туркестанского Края (1865-1917). Москва, 1980, 118s.
- Mehdiyeva N. Türk xalqları tarixi. Bakı, 2004, 330s.
- Мирза Азим Сами. Тарихи салатын. 1972, 82s.
- Нарочницкий А.Л. Колониальная политика капиталистических державна Дальнем Востоке 1860-1895гг., Москва изд-во Акад.наук СССР, 1956, 899s.
- Предтеченский А.В. Очерки общественно-политической истории России в первой четверти XIX века. М.-Л. Изд-во Акад.наук СССР, 1957, 465s.
- Пясковский А.В. Революция 1905-1907гг. в Туркестане. Москва Изд-во Акад.наук СССР, 1958, 615s.
- Солженицын А.И. Двести лет вмести (1795-1995). В 2-х частях.Ч-1. Москва, 2001, 510 s.
- Фомченко А.П. Русские поселение в Туркестанском крае. (в конце XIX-начале XX в.) (социально-экономический аспект) Ташкент, «ФАИ», 1983, 127s.
- Халфин Н.А. Политика России в Средней Азии. М.,1960, 270s.
- Халфин Н.А. Россия и ханства Средней Азии ( I пол. XIX в.). М.,1974, 406s.
- Халфин Н.А. Присоединение Средней Азии к России (60-90 годы XIX в.). М., 1965, 467s.
- Шепелев А. Очерк военных и дипломатических сношений России со Средней Азии. Ташкент, 1979, 321s.
- Йолдашев А.М. Аграрные отношения в Туркестане. (конце XIX- начале XX в.). Ташкент «Узбекистан», 1969, 256s.